# Şəxsiyyətin formalaşmasında ailə dəyərlərinin rolu

**Zinyət Çingiz qızı Əsgərli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** zinyet.17@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d. L.M. Qurbanova,
psixol.ü.f.d., dos. Ü.A. Əfəndiyeva

**Açar sözlər:** psixologiya, şəxsiyyət, tərbiyə, ailə, dəyər, ailədaxili münasibətlər, adət-ənənə

**Ключевые слова:** психология, личность, воспитание, семья, ценности, семейные отношения, традиции

**Key words:** psychology, identity, upbringing, family, values, family relations, traditions

Şəxsiyyət anlayışı geniş məzmuna malikdir. Psixologiya şəxsiyyəti psixoloji proseslərin vəhdəti kimi öyrənir. Şəxsiyyətin əsas göstəricisi insanın öz "mən"ini qeyri "mən"dən seçməsidir. Şəxsiyyət başqa insanlarla ünsiyyət prosesində formalaşır. Şəxsiyyət fəaliyyətin fəal subyektidir. Şəxsiyyətin mövcudluğu üçün fəallıq vacibdir. Şəxsiyyətin formalaşmasına irsiyyət, mühit və tərbiyə təsir edir. İrsiyyətin rolu üstün olsa da, mühit və tərbiyənin də rolu az deyil. İnsanın şəxsiyyət kimi formalaşması üçün düzgün mühit və tərbiyə vacibdir.

Tərbiyənin məqsədi cəmiyyətin həyat şəraitindən və tələbatından doğur. Tərbiyə şəxsiyyətin düzgün formalaşması və inkişafı prosesidir. Tərbiyənin mahiyyəti şəxsiyyəti yüksək insani keyfiyyətlərlə tərbiyələndirmək, ailə münasibətləri mədəniyyəti formalaşdırmaq, cəmiyyətdə düzgün davranış normalarına istiqamətləndirmək, milli və bəşəri dəyərləri mənimsətməkdir. Hələ antik dövrdə filosof Platon deyirdi ki, insanı düzgün tərbiyə etsək, o, ən sakit məxluq olar. Əgər onu tərbiyə etməsək və yaxud yanlış tərbiyə versək, onda o, yer üzərində olan heyvanların ən vəhşisi olar.

İngilis filosofu Con Lokk "Ağ lövhə" nəzəriyyəsini irəli sürərək demişdir ki, tərbiyədən istifadə edərək insanın inkişafının istiqamətini istənilən səmtə yönəltmək olar.

Cəmiyyətin təməl vahidi olan ailənin problemləri və ailə-nikah münasibətləri həmişə sosial psixologiyanın maraq dairəsində olmuşdur. Cəmiyyət tarixi inkişaf prosesi keçdikcə ailə və cəmiyyət, ailə və şəxsiyyət arasındakı münasibətlər hər zaman cəmiyyətdə mövcud olan dəyərlər vasitəsilə dəyişib. Ailə dəyərləri ailədə və cəmiyyətdə bir davranış modeli olaraq ənənələr vasitəsilə yeni nəsillərə ötürülür.

Dünyanın bütün ölkələrində ailə və ailə dəyərləri hər zaman hər bir cəmiyyətin əsasını təşkil etmişdir. Mədəni xüsusiyyətlərindən asılı olmayaraq, hər bir ailədə uşaqlar doğulur və yaşlı nəslin təcrübəsini mənimsəyərək mənsub olduğu xalqın adət-ənənələrinin daşıyıcısına çevrilir.

"Ailə dəyərləri" anlayışının mənasını anlamaq üçün "ailə" və "dəyər" anlayışlarını başa düşmək lazımdır. Ailə şəxslərin ümumi bir həyat, qarşılıqlı yardım, mənəvi və qanuni məsuliyyət ilə əlaqələndirən nikah və qohumluğa əsaslanan kiçik bir qrupdur. Uşaq üçün ailə onun fiziki, əqli, emosional və intellektual inkişafı üçün mövcud olan münbit bir mühitdir. Ana və ata övlada tərbiyə verəndir. Həyat dövrünün mərhələlərində insanın ailədəki funksiyaları və statusu ardıcıl olaraq dəyişir.

Ailə nəyin üzərində qurulmalıdır? Bəlkə etibar və məhəbbət üzərində? Və ya qarşılıqlı

hörmət və anlaşma üzərində? Əlbəttə, bütün bunlar bir ailə üçün bir təməlin tərkib hissələridir. Sadaladığımız anlayışlar ailə dəyərləri altında birləşir. Yəni ailə dəyərləri heç bir pula satın alınmayan və ya oğurlana bilinməyən bir məfhumdur.

Ailə dəyərlərinin tərbiyəsi ailə mədəniyyətinin tərbiyəsi və ailə münasibətlərinin əxlaqi cəhətdən tərbiyəsidir. Ailənin bir dəyər kimi mənası, insanın "mən" və "biz" anlayışları arasında "biz"in tərəfini tutmasıdır.

Ailə münasibətlərinin mədəniyyəti insanların bir-biri ilə ünsiyyətdə yaş fərqlərini nəzərə almaq (kiçik bacı və qardaşla, nənə və baba münasibət), başqa bir insana diqqət ayırmaq, ona qayğı göstərmək, təşəkkür etmək və qarşılıqlı etibar etməkdən ibarətdir. Ailə dəyərləri şəxsin funksiyası və tərbiyə vəziyyətindən asılıdır. Bəziləri ailə dəyərlərinin dini münasibətlərlə ayrılmaz şəkildə bağlı olduğunu söyləyirlər.

Ailə dəyərləri nəsildən-nəslə ötürülən adət və ənənələrdir. Evdə insanların birlikdə yaşadıqları hər şey - sevinc və kədər, firavanlıq və ya problem və çətinliklərdir. Ailə dəyərlərinə eyni zamanda evlilik, uşaqlar, onların tərbiyəsi və təhsili, rahat mənəvi və psixoloji ailə iqlimi, ünsiyyət, mənəvi yaxınlıq hissi, sevgi, dostluq, hörmət daxildir. L.İ. Savinovun fikrincə isə ailə ümumbəşəri dəyərləri - ədalət, yaxşılıq, pislik, mərhəmət və s. formalaşdırır. Yəni ailə ümumbəşəri dəyərləri birləşdirir.

Gənclərin ailə həyatına hazırlanması peşə fəaliyyətinə hazırlıq, cəmiyyətə uyğunlaşma qədər vacib məsələdir. Ailə dəyəri əvvəlcə valideynlər tərəfindən, daha sonra məktəb və digər təhsil müəssisələrində, habelə gənclər təşkilatları və əmək kollektivləri tərəfindən formalaşdırılmalıdır.

Ailə tədbirləri, ailə üzvləri arasında təşkil edilən bayramlar dəyər hesab olunur. Dəyər insanın ehtiyacları və maraqları olan hadisələr, fikirlər, düşüncələrdir. Dəyərlər maddi və mənəvi olaraq təsnif edilir. Ancaq onları birləşdirən yeganə əlamət insanlar üçün vacib olmasıdır. İnsan dəyəri özü yaratmır, cəmiyyətdə mövcud olmuş və özünə faydalı olanları qəbul edir.

Şəxsi dəyər – həyat dəyər anlayışının təməli hesab olunur. Müasir elmdə ailə və dəyər anlayışını ümumiləşdirərək aşağıdakı fikri söyləyə bilərik: ailə dəyərləri ailə üzvlərinin bir-birilə və ətraf aləmlə münasibətidir.

"Ailə dəyərləri"nə ailədə mövcud olmuş əxlaqi, mənəvi və etik münasibətləri də aid etmək olar. Ailə xoşbəxtliyi və ailə rifahı ailə adət-ənənələrinin yaradılmasında öz ifadəsini tapır. Bir zamanlar adət-ənənələr, ailə üzvlərinin mənəviyyatı üçün məcburi bir xarakter daşıyırdı. Ailə adət-ənənələri, ailə üzvlərinin günlük yaşamının, həyat tərzi və vərdişlərinin mövcud olduğu mənəvi atmosferidir.

Kiçik bir uşaq dünyanı böyüklərin daha doğrusu valideynlərinin gözü ilə qəbul edir. Ata və ana elə ilk görüşdən uşaqlarında dünyaya baxışı formalaşdırırlar. Əvvəlcə onun üçün toxunuşlar, səslər və vizual görüntülər dünyası qururlar, sonra ilk sözləri öyrədirlər, sonra bütün bunlara münasibətlərini çatdırırlar. Bir ailənin bir neçə nəsli bir masaya toplandıqda, uşaqlar ailə dəyərlərini daha aydın şəkildə başa düşür və mənimsəyirlər.

Ailədə əxlaqi, mənəvi prinsiplər inkişaf etməyə başlayır, insanın gələcək xoşbəxtliyinin və ya bədbəxtliyinin əsası qoyulur. Uşaq ailədə sevməyi, inanmağı, qayğı göstərməyi, sevdikləri, dünya və özü ilə münasibət qurmağı öyrənir. Eyni zamanda da kobudluğu, eqoizmi, yalan danışmağı və s. ailədə mənimsəyir. Ailə dəyərləri uşaqlara və böyüklərə psixi və emosional rahatlıq yaratmalıdır.

Ənənə uşaq üçün ən yaxşı tərbiyə növüdür. Ənənə uşağa ən vacib şey - inam verir və uşaq hər zaman hər bir şəraitdə ailənin hər bir üzvünün birlikdə olacağına inanır. Ənənələr uşağın daxilində uşaqlıq qayğılarından, ananın yumşaq əllərindən, nənənin üzündən, ata və babanın

qayğısından ibarət xatirələrindən formalaşır. Bu xatirələri insan həyatı boyunca daşıyır. Xatirələr ailəmizlə qürur duymağımıza səbəb olur. Əlbəttə ki, bu ənənələrlə böyüyən bir uşaq həyatın çətin anında heç vaxt ailəsini tək qoymaz.

Bir insanın inkişafı həmin insanın daxili aləmi ilə xarici aləminin qarşılıqlı əlaqəsindən çox asılıdır. Bu əlaqədə ailədə formalaşır. Bu baxımdan fərdi və ictimai maraqların, dəyərlərin uyğunluğu həm cəmiyyətin inkişafı üçün, həm də şəxsiyyətin özü üçün xüsusi əhəmiyyət kəsb edir.

Dəyər anlayışı ailədən-ailəyə dəyişir. Belə ki, bəzi ailələrdə ailə dəyərləri yüksək, bəzilərində aşağı səviyyədə olur. Məsələn; Patriarxal həyat tərzi yaşayan insanların düşüncələrinə əsasən kişi ailənin aparıcı qüvvəsi, əsas qazancın sahibi və son sözü söyləyən insandır. Atanın sözü, fikri sorğulanmır və itaət olunur. Bu dəyərlərə sahib olan insanlara görə qadın sadəcə arvad və anadır. Qadının əsas vəzifəsi uşaqları dünyaya gətirmək, böyütmək və bütün ev işlərini öz üzərinə götürməkdən ibarətdir. Matriarxal ailələrdə isə əksinə qadın aparıcı qüvvədir.

Qadınların fikri sorğulanmaz və hər kəs qadınlara itaət edər. Məsələn, bəzi ailələr erkən durmağı, işə getməyi və axşam ailə üzvləri ilə görüşmədən, danışmadan yatmağa üstünlük verirlər. Digər ailələrdə isə ortaq yeməklər yeyilir, bir-birlərinin problemlərinə diqqət ayrılır, müzakirə edilir və həlli üçün müəyyən çıxış yolu axtarılır.

Ailə tipinə görə dəyər obyekti dəyişir. Məsələn; elə ailələr var ki, burada valideynlər bütün həyatını uşaqlara həsr edirlər. Belə ailələrin mənfi tərəfi valideynlərin özlərini “qurban” verməsidir. Valideyn şəxsi azadlığından imtina edərək övladının xoşbəxt olmasına çalışır. Belə ailələrdə uşaqlarda əməyə düzgün münasibət, müsbət əxlaqi xüsusiyyətlər formalaşmır, uşaq dikbaş olur, heç kəsin fikri ilə razılaşmır və s.

Sadaladıqlarımızdan belə bəlli olur ki, ailə üzvləri tərəfindən əhəmiyyət verilən və onların ümumi maraq sahəsi olan şeylər ailə dəyərləri hesab olunur. Ailə dəyərləri insanların həyat tərzini müəyyənləşdirir. Bu kimi fikirlər həmin ailələrin dəyərləridir. Bu dəyərlər isə ailənin sütununu təşkil edir.

N.A. Berdyaev mənəvi dəyərlərin sosial həyatdan yüksək olduğunu və hər mədəniyyətin digər mədəniyyətdən fərqli olduğunu söyləyirdi. Mədəniyyətlər fərqli olduğu zaman insanların dəyər anlayışı da dəyişirdi. Məsələn; bu gün Qərb və Şərq cəmiyyətlərini müşahidə etsək ailə və əxlaqi dəyərlərin necə də təzadlı olduğunu görmüş oluruq. Bir müsəlman ailəsində valideyn övladına çox dəyər verir və uşağın istənilən yaş mərhələsində bu dəyər davam edir. Valideyn öz maraqlarını övladın maraqlarına qurban verir. Çünki müsəlman-türk cəmiyyətinin ən önəmli dəyəri başqasını xoşbəxt etməyə əsaslanır. Qərb cəmiyyətində isə bir yaşdan sonra övlad sərbəst buraxılır. Valideyn və övladın ayrı-ayrılıqda öz maraqları var və bu maraqlar toqquşmur. Hər iki münasibətin həm müsbət, həm də mənfi cəhəti var. Şərqin bu düşüncəsinin müsbət cəhəti uşağın kiçik yaşdan dəyərlər əhatəsində böyüdülməsidir.

Nəticədə uşaqda sağlam ailə modeli formalaşır. Mənfi tərəfi isə uşağa müstəqillik verilmədiyi üçün o müstəqil düşünə bilmir, çətinlikləri tək başına həll edə bilmir və heç zaman valideyndən asılı qalır. Qərb düşüncəsinin müsbət cəhəti isə uşağın kiçik yaşlardan müstəqil həyata qədəm qoyması və müstəqil düşünməsinə imkan yaradılmasıdır. Ancaq mənfi tərəfi isə uşağın dəyərlərdən uzaqlaşdırılmasıdır. Hər hansısa çətinliklə qarşılaşan uşaq ailədən dəstək almır və onda insanlıq dəyərləri olan əməkdaşlıq, birgəlik, bir-birinə kömək etmək kimi xüsusiyyətlər formalaşmır. Ona görə də qərb sağlam ailə modeli yaratmaq istəyirsə, Şərq xalqlarının, türkdilli millətlərin, müsəlman cəmiyyətlərinin ənənələrini, milli-mənəvi dəyərlərini, əxlaqi normalarını mənimsəməlidir.

Sağlam ailə sağlam cəmiyyətin təməl daşıdır. Bu gün müasirləşmə dövründə insanların

üzərinə çox böyük məsuliyyət düşür. Belə ki, cəmiyyətdə ailələr texnoloji inkişafın nailiyyətlərinin düzgün istifadə olunmaması ilə əlaqədar ailə dəyərlərini unudurlar. Ailə üzvləri bir-birindən uzaqlaşırlar. Nəticədə cəmiyyətdə sevgi, hörmət, güvən yerinə qısqanclıq, xəyanət kimi mənfi davranışlar ortaya çıxır.

İnsanlar müsbət xüsusiyyətləri itirdikcə, fərdlərin bir yerdə yaşamaları da mümkün olmur. Müasirləşmənin məhv etdiyi dəyər cəmiyyətin eroziyasına səbəb olur. Buna baxmayaraq son dövrlər ailələrdə öz köklərinə maraq ortaya çıxır və bu insanların ailə ağacına ekskursiya etməsinə səbəb olur. Belə ekskursiyaların nəticəsində uşaqlar adət-ənənələri daha yaxşı dərk edir. Uşaq və böyüklərin fəaliyyətinin düzgün təşkili uşaqların təhsil baxımından inkişafı üçün də önəmli faktordur.

Ailə tədqiqatları ilə məşğul olan alimlər belə qənaətə gəliblər ki, gənclərin mənəvi inkişafı bioloji inkişafdan 8-10 il geri qalır. Bu o deməkdir ki, gənclər mənəvi cəhətdən ailə həyatına hazır olmadıqları halda, bioloji cəhətdən buna tam hazırdırlar. Bu hazırlığı ailədən başlamaq, universitetlərdə davam etdirmək, mənimsənilmiş bilikləri möhkəmlətmək müasir dövrün aktual problemlərindən biridir.

Bir millət olaraq ailə dəyərlərini əvvəlcə ailədə yaşatmalıyıq. Ailə dəyərlərinə söykənən mühitdə böyüyən uşaq ənənələrə sadiq qalır, keşmişini və milli dəyərləri unutmur. Məhz ailə təməli də ailə üzvlərini özündən çox sevərək və sevdiklərini özündən çox düşünərək qurulmalıdır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə mövcud olan qlobal problemlərdən biri düzgün ailə modelinin olmamasıdır. Məqalədə necə düzgün ailə modelini qurmaq və qorumaqdan bəhs olunur. Sosial-psixoloji problemlərin çoxaldığı bir dövrdə ailə dəyərləri və onları qorumaq aktual problem sayılır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə dəyər anlayışı, şəxsiyyətin inkişafında onun təsiri, həmçinin ailə dəyərlərinin formalaşmasında insan psixologiyasının rolundan bəhs olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta məktəb müəllimləri, tələbələr və magistrlar istifadə edə bilər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2002.

2. Əlizadə Ə., Abbasov A. Ailə: ümumtəhsil məktəblərinin IX sinifləri üçün dərslik. Bakı: Maarif, 1989.

3. Əlizadə Ə., Abbasov A. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1988.

4. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2016.

5. Abbasov A.N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim, 2019.

6. Abbasov A.N., Məmmədzadə R.R. Ailə pedaqogikası (Müntəxəbat): Ali təhsil müəssisələri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2020.

7. Mirzəyev İ. Ailənin praktik psixologiyası. Bakı, 2005.

8. Quliyev S., Quliyeva M. Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri. Bakı, 2013.

9. Савинов Л.И. Семьеведение: учебное пособие. Саранск: Изд-во Мордовского ун-та, 2000.

**З.Ч. Аскерли**

## Роль семейных ценностей в формировании личности

## Резюме

В статье рассматривается формирование личности, воспитание, семейные ценности и влияние этих ценностей на личность человека. В статье также сравниваются Восток, Запад и разные типы семейных ценностей. В содержании статьи содержатся представления о семейных ценностях, которые являются стержнем семьи.

**Z.Ch. Askarli**

## The role of family values in the formation of personality

## Summary

The article examines the formation of personality, upbringing, family values and the impact of these values on an individual. The article compares Eastern, Western and different family values. The content of the article contains ideas about family values, which are the core of the family.

**Redaksiyaya daxil olub:** 10.02.2021